Qulu Məhərrəmli sərrast və sərt başlıqlarla yazıdan əvvəl hədəfi düzgün vurmağın ustadıdır. Elə başlıqdanca məlum olur ki, hədəf öldürücü zərbə altına düşəcək: *"Suyu unitaza necə axıtmalı?"* (12.10.2013). Bu yazıda müəllif postsovet dövründə başlanan seçki mübarizələri ilə bağlı düşüncələrini oxucularla bölüşür. Biyançılığı inkişaf etdirməklə əhalini xoşbəxtliyə çatdıracaq vədlər verən Nizami Süleymanovun az qala bu boş və mənasız vədlərlə hakimiyyətə gəlmək şanslarını fikir, düşüncə işığına tutur. Demək, əhali nə qədər ciddi analiz etmək qabiliyyətindən məhrumdur ki, bu cür mənasız vədlərin arxasınca ayaqyalın yüyürməyi belə özünə rəva bilir. Anoloji mühit kimi Türkiyədən misallar gətirir. Şahidi olduğu hadisələri diqqətə çəkir. Nəhayət, yazının sonunda şimali Qafqazda qarşılaşdığı bir elan yazısını mətnlə oxucuya çatdırır. Demək, ictimai ayaqyolunda belə bir tələb yazılıbmış: *"qarşıya qoyulmuş məqsəddən və nail olunmuş nəticədən asılı olmayaraq unitaza su axıtmağınızı xahiş edirik"*. *"İnsanın azadlığı müəyyən mənada çoxalıb, lakin azadlığının artması ilə birgə onun daxilində mənəvi parçalanma da güclənib. Dəyərlər gücdən düşüb, sosial müdafiə zəifləyib, bununla bağlı ictimai əxlaqa və sabaha inam da öləziyib. İnamsızlıq həmişə insanda məyusluq duyğusu oyadır. Bu məyusluq isə cəmiyyətdə mənəvi boşluqlar yaradaraq insan psixikasını zədələyir, mənəvi abır-həyanı və ləyaqət hissinin aşınmasını stimullaşdırır"*. Qətiyyən müəllifi nihilist yanaşmada qınamaq fikrim yoxdur, çünki bu yanaşma üçün cəmiyyətdə gedən mənəvi mühitin sürətli aşınması əsas verir. Hətta elə qüvvələr meydana çıxır ki, bu qüvvələr ailə institutunun dağılmasına da rəvac verməyə çalışır. Şübhəsiz, ailə institutu abırhəyanın, əxlaqın, bir sözlə, insanın mənəvi keyfiyyətlərinin, şəxsi əxlaqının mühafizə zonasıdır. Amma hər halda cəmiyyət bütövlükdə sağlam istiqamətdə inkişafa meyillidir.

Gərgin psixoloji durumlar özünü dalğavari prosesdə göstərir. Hər halda cəmiyyətin özünü qoruma instikti ayrılıqda xəzinəsinə, texniki və intellektual kəşflər sisteminə heç nə verə bilməyən mühit İslam dininin tərsinə yozumu ilə insanları ətalətə gömür və hər cür düşünmə imkanından məhrum etməklə onların azadlıqlarını da qəsb edirlər.

Qulu Məhərrəmli bu geriliyə beş əsas səbəb göstərir: *"Əsas səbəb təhsilsizlik və elmsizlik, bunun nəticəsi kimi elliklə savadsızlıq, cahillik və nadanlıqdır. Belə vəziyyətdən çıxmağın yeganə çarəsi isə yalnız oxumaqda, maariflənmkdə, keyfiyyətli təhsildədir"*. Qulu Məhərrəmlinin müsəlmanın geriliyi üçün gətirdiyi bu səbəbə heç bir etirazım yoxdur, amma, zənnimcə, bu müddəaya bir qədər açıqlama vermək mühitimiz üçün faydalı olardı. Nə üçün maariflənə bilmirik? Əgər şagird yaxud tələbə, eləcə də elm araşdırıcısı, tədqiqatçı mühüm vaxtını namaz qılmaqla keçirirsə, dini ayin və ibadətləri ən azı peyğəmbərdən daha çox, daha artıq icra etmək üçün cəhd edirsə, elmə vaxt qalmır axı. Namaz qılan uşaq riyaziyyat kitabını bir tərəfə atıb mənasını bilmədiyini sözləri vird elə-

# 3. HƏYAT İNSTİNKTİ: TƏMİZLƏNMƏ İSTƏYİ

***Azərbaycanda teleradio jurnalistikasının bir elm kimi nəzəri cəhətdən araşdırılmasının tarixi çox da uzağa getmir. Bizim tələbəlik dövrümüzdə bu sahədə nəinki dərs vəsaiti, hətta qəzet və jurnallarda dərc olunmuş elmi məqalə tapmaq da müşkül idi. Son dövrlərdə bu sahədə xeyli kitab, dərslik, metodik vəsait işıq üzü görüb. Bu, çox yaxşıdır. Tam səmimiyyətlə deyə bilərəm ki, bu kitabların içərisində professor Qulu Məhərrəmlinin qələmindən çıxan əsərlər, yaxşı mənada fərqlənir, özünün elmi yükü, novatorluğu, innovativ xarakteri, ilk növbədə isə aydın, səlis, anlaşıqlı dili ilə seçilir. Ümumiyyətlə, Qulu müəllim media, xüsusən də teleradio jurnalistikası araşdırıcıları arasında ən öndə gedənlərdəndir, bəlkə də, birincisidir.***

**Qüdrət PİRİYEV, jurnalist, Əməkdar mədəniyyət işçisi**

Burada su təmizlik obrazıdır. Əgər yaşadığın mühiti mikrobsuz, təmiz göstərmək istəyirsənsə sudan istifadə etməlisən. Buna ictimai məzmun verən müəllif başlıqdakı sualı təsadüfi qoymur. Suyu unitaza necə axıtmalı? Demək, suyu unitaza axıtmaq üçün müəyyən vasitə olmalıdı. Hər hansı bir cəmiyyətin təmizlənməsində seçkinin xüsusi rolu var. Seçki unitaza axıdılan su olmasa da, hər halda təmizləyici missiyası ilə su obrazını xatırladır.

Ancaq burada müəlliflə mübahisəyə girmək də olar. Azərbaycanda bir çox seçki kompaniyaları göstərib ki, bir çox hallarda və bir çox yerlərdə seçkini kütlənin ixtiyarına buraxmaq da olmur. Çünki belə mühitdə hər cür avantüristləri, biyan kötüyü ilə əhalini xoşbəxtliyə çatdırmaq vədi verənləri, yumruğuna güvənənləri, daha hündür səslə söyüş söyənləri az qala milli qəhrəmana çevirib Milli Məclisə gətirmək imkanı da yaranır.

*"Korşalmış instiktlər"* (11.01.2014) yazısı da cəmiyyətdəki təəssüf doğuran mənəvi problemləri yaradan səbəbləri açıb ağartmaq baxımından diqqəti çəkəndir. Müəllifin özü demiş bu qeydlərdə o, itirilmiş ümidlər və bir də kütləviləşmiş məyusluq haqqında danışır.

Həyat uğrunda mübarizə, yaşamaq instikti, bir çox mənəvi problemlər bu yazıda önə çəkilir. Xüsusilə yaşamaq instiktinin insan həyatı üçün nə qədər əhəmiyyətli olduğunu göstərmək üçün cəmiyyətdə gedən siyasi qarşılaşmaları, bu qarşılaşmalarda siyasi liderlərin şəxsi ambisiyalarla bir-birinə qarşı döyüşmələrini cəmiyyət həyatının qara kitabı kimi vərəqləyir.

*"Mənəvi düşkünlük sindromu"* (16.06.2016) yazısına müəllif Mahatma Qandidən *"Mən yalnız bir zülmkar tanıyıram - bu, vicdanın sakit səsidir"* və Aleksandr Soljenitsından *"Sovet həyat tərzinin tarixi gündən-günə şişib dolan həyasızlıq tarixidir"* epiqraflarını gətirir və sonra Asif Atanı yada salır.Asif Ata cəmiyyətin maariflə, öyrənməklə, dəyərləri uca tutmaqla və yaşatmaqla saflaşacağına inanırdı. Hələ vaxtı ilə Asif Atanın estetika klubunda oxuduğu mühazirələrdə çox sağlam və romantik ideallar təbliğ olunurdu. Müəllif göstərir ki, o vaxt Asif Ata cəmiyyəti maarifləndirməklə pislərin gedəcəyini, yaxşıların qalacağını israrla bildirirdi. Ancaq elə onda da Asif Ataya replika ilə cavab verirdilər ki, pislər gedəcək yeni yaramazlar doğulacaq. Müəllif bu qeydlərini bir qədər bədbin notlarla bitirir: fərdlərin instiktindən güclüdür. Ona görə də, zənnimcə, qədərsiz ümidsizliyə qapılma o qədər də əsaslı deyil.

*"Müsəlman geriliyinin beş səbəbi"* (21.04.2017) yazısının mahiyyətinə keçməmişdən əvvəl bir-iki məqama diqqəti çəkmək istərdim. Bu günlərdə az qala ayağımın altında yeri titrədəcək bir kadrla rastlaşdım. Yutub kanalında erməni məscidində məhərrəmlik təziyyəsi nümayiş olunurdu. İrəvan hara məhərrəmlik təziyyəsi hara? Ermənilərlə buradakı işgüzar və ya turizm məqsədi ilə gəlmiş az saylı farslar İmam Hüseyn təziyyəsi keçirirdi. Amma izdiham böyük idi. Təziyyəyə qoşulmuş erməni ziyalıları həvəslə müsahibələr verir, müsəlman-fars qardaşlarının Hüseyn dərdinə şərik olduqlarını şövqlə bildirirdilər. Ermənicə qəribə səslənən *"Hüseyn can"* nidaları da İrəvanın başı üstündə əks-səda verirdi. Qulu Məhərrəmli müsəlman geriliyinin səbəblərindən danışır. Və bu zaman Azərbaycanın və Şərqin görkəmli mütəfəkkirlərinin adlarını çəkərək məsələnin mahiyyətinə dəxli olan fikirlərini yada salır: ***"Hələ bir əsr əvvəl Üzeyir bəy müsəlman aləminin məzlumluğundan, Sabir və Mirzə Cəlil toplumun cahilliyindən, F.Köçərli yarımçıqlığından, İ.Qaspiralı fikir və zehniyyət donuqluğundan şikayətlənirdi. Şərqin "mürgülü" təbiətindən gileylənən Ə.Ağaoğlu da, onun müəllimləri H.Zərdabi və S.C.Əfqani də müsəlmanların sivilizasiyadan kənarda qalmasının bir səbəbini ifrat dindarlıqda görürdülər. Onlardan çox-çox əvvəl isə zülmətdə işıq axtaran Mirzə Fətəli müsəlman Şərqində avamlığı, nadanlığı və mövhumatı nəfəs dərmədən qamçılayırdı"*. Əlbəttə, klassiklərin mövqeləri son dərəcə doğrudur və əslində mən özüm də bu fikirlərin hamısı ilə şərikəm. Onların düşüncələrindən gələn hökmlər az qala iki əsrə qədər vaxt keçsə də, yenə köhnəlməyib. Və müsəlman aləmi geriləməkdə davam edir. Demək olar ki, dünya elm** məklə vaxtını öldürür və bundan da valideyn fərəh duyursa, burada hansı elm öyrənməkdən söhbət gedə bilər? Halbuki, İslam elmə ibadətdən daha böyük önəm verir.

Professor sözünə davam edib ikinci səbəbi göstərir: *"İkincisi, kasıblıq və kütləvi yoxsulluqdur. Bunun da çarəsi azad biznesin inkişaf etdirilməsi, sərbəst bazar iqtisadiyyatının qurulmasıdır"*. Yenə doğrudur. Ancaq İslamın bətnindəki qismət məsələsi, guya həyatda baş verənlərin hamısının Allahın iradəsi ilə gerçəkliyini təlqin edən ideyaların cəmiyyətə sırıdılması, təbliği, zənnimcə, kasıblığın və yoxsulluğun əsas səbəbi olaraq özünü göstərir: Payına nə düşübsə ona qane ol.

Təşəbbüskarlıq, mübarizə sənin işin deyil. Bütün bunlar üst-üstə yığıldıqca müsəlmanı mağmun edən əsas amilə çevrilir. Elmin, tərəqqinin olmadığı mühitdə dözümün və səbrin, bu dünyada nəsibin olmayan xoşbəxtliyi cənnətdə tapacağına yönəlik təbiğət əslində insanın mənəvi mühitini əzib heçə döndərir. Professor sözünə davam edir: ***"Üçüncü problem müsəlman aləmində fərdlərdən tutmuş da dövlətlərarası münasibətlərə qədər hər yerdə konfliktlərin, aramsız ziddiyyət və münaqişələrin tüğyan etməsidir. Bundan nicat tapmağın yolu isə qarşılıqlı anlaşmada, dialoqda, xoş niyyətdə və barışdadır"*. Burada da dindən alət kimi istifadə edərək, insanların əsas haqlarını əlindən almaq xüsusi gücə çevrilir. Din qardaşlığı adı altında İran 30 milyondan çox türkü mənəvi varlığından məhrum edir. Amma şərait yaranan kimi İslam aləminə həqarət edən ermənilərlə hər cür iş birliyinə rəvac verir. Burada silah alveri də, narkotik də, terror da, insanları casusluğa təhrik etmək də... bütün bunların hamısı dinlə, şəriətlə, hətta Quranla əsaslandırılır.**

***(Davamı 8-ci səhifədə)***

# 3. HƏYAT İNSTİNKTİ: TƏMİZLƏNMƏ İSTƏYİ

*(Əvvəli 6-cı səhifədə)*

Müsəlmana təlqin olunur ki, Allah sənə müti olmağı, qorxaq olmağı təlqin edir. Bu da mahiyyətcə Qulu Məhərrəmlinin dördüncü səbəbini şərtləndirir: *"Geriliyin dördüncü səbəbi müsəlman əhlinin hədsiz mütiliyi, öz haqqını müdafiə edə bilməməsi, hər şeydən çəkingənliyi və qorxaqlığıdır. Düzü, bunun çarəsinin nədə olduğunu deməyə adam çətinlik çəkir, çünki mütilik və qorxaqlıq adi dərd deyil, insan xislətidir"*. Doğrudur, burada Qulu Məhərrəmli məsələni fərdin xisləti ilə bağlayır. Amma hər bir fərd sərbəst düşüncə imkanından məhrum edilirsə, onun özündə günah axtarmaq absurddur.

Növbəti səbəbi isə Qulu Məhərrəmli insanların nəfsi, tamahı ilə daha çox bağlayır: *"Beşinci səbəb kimi müsəlman toplumunda ölçü hissinin gözlənilməməsi, insanların heç bir məsələdə öz nəfslərinə hakim ola bilməməsidir. Bu halın çarəsi əvvəldəki iki səbəbin aradan qaldırılmasındadır"*. Professor, əlbəttə, müəyyən mənada doğru deyir. Nəfsə, tamaha da şərait yaradan maarifsizlikdir. Ancaq unutmaq olmaz ki, siyasi quruluşları dinə əsaslanan ölkələrdə hər şey dini hökmlərlə ölçülür.

Bir sözlə, müsəlman ölkələrinin geriliyinin əsas səbəbi İslamın siyasi alətə çevrilməsidir. Hakimiyyəti ələ keçirən qüvvələr İslamın tərs yozumu ilə kütlələri mənəvi buxova məhkum edirlər. Əslində professor özü də bunu kifayət qədər bilir və nəticədə müəyyən mənada bu qənaətə gəlir: *"Bilirəm, bəzilərinizin ürəyindən keçir deyəsiniz ki, bu gün nizamı pozulmuş dünyada müsəlmanların bir problemi də onların qüsurlu idarəçilik sistemində yaşamaları, yəni İslam ölkələrinin çoxunda monarxiya və avtoritarizmin hökm sürməsidir. Təbii ki, ortada ərəb şeyxləri M.Qəddafi, S.Hüseyn, H.Mübarək, hələ də hakimiyyət üçün çarpışan B.Əsəd kimi "nümunələr"in olması adamlarda bu qənaəti gücləndirir. Amma gəlin razılaşaq ki, hakimiyyət hərisliyi dini mənsubiyyətlə yox, insan xisləti ilə bağlıdır. Oturduğu kreslodan yapışıb qopmaq istəməmək, ömür boyu hakimiyyətdən sallaşıb qalmaq xasiyyəti Amerika, Afrika və Asiya qitələrində müsəlman olmayan bir çox ölkələrin liderlərinə də xasdır. Yəni burada bir səmavi din olaraq İslamı günahlandırmaq doğru deyil"*. Heç biz də bütövlükdə İslamı günahlandırmaq məqsədi güdmürük. Sadəcə İslamdan vasitə kimi istifadə edərək az qala bir milyarddan çox əhalini mənəvi cəhətdən şikəst edən mühitin mahiyyətini göstərmək istədik.

Bir təəssüf olunan cəhət də var. İllər boyu insanların düşüncəsinə yeridilib ki, İslamdan o tərəfə bizim tariximiz yoxdur. Yaxud İslamdan o tərəfə bütün dəyərlərdən məhrumuq. Elə ona görə də bu gün Azərbaycandakı qədim Alban kilsələri, İslamdan əvvəlki mədəniyyət zaman-zaman gözdən salınıb. İndi ermənilər asanlıqla bu mədəniyyətə sahib çıxmaq istəyirlər. İslamın gətirdiyi düşüncə bizim üçün əsas sərvət kimi təbliğ olunub. Halbuki, Cavanşir də, Babək də Azərbaycan xalqının mənəvi dəyərlər sisteminə daxildir. Biz övladlarımızı bu qəhrəmanlara öyünc ruhunda tərbiyə etməliyik.

Xüsusilə təqdir olunan haldır ki, indi Azərbaycanda İslamdan əvvəlki mədəniyyətə sahiblənmək uğrunda əsaslı və inadlı mübarizə gedir.

**20.09.2021**